

Nəzakət

## Sevgidən ağla

Ürəyin sevirsə, xoşbəxt adamsan
Yaşıl ümidlərin solubsa, ağla.
Varsa yar yolunda nigaranlığın,
Ürəyin bulud tək dolubsa, ağla.

Saçında görünən o ağ telləri
Taleyin qaralan telinə bağla.
Üz tutub dərdini göylərə söylə,
Göz yaşı iz salsın üzünə, ağla.

Gecikmiş bir eşqin dadı necədi,
Gəzdinmi izini gündüz çıraqla?
Gəzib ağlamağa bir yer tapmasan,
Baş qoyub dizinə, özünü ağla.

Könlüm, bu sevdanın ünvanı yoxdu,
Qoşul küləklərə axtar, soraqla.
"Göz yaşı ürəyə axsa, dərd olar",
Sinəmə sığınıb, doyunca ağla!

## Yurd həsrəti

Çatlayır nar kimi sinəmdə ürək
Qədrini vaxtında biləydik gərək.
Kaş külək olaydım, dəli bir külək,
Əsəydi üstündə sözüm yurdumun.

Qara qayasına dağ qalam deyib,
Dağlara uçulmaz ağca dam deyib,
Çopur daşına da öz balam deyib,
Qalandı üzündə izim yurdumun.

Təbrizi, Dərbəndi daladı getdi,
Göyçəni odlara qaladı getdi,
Şuşanı yad əllər taladı getdi,
Üstündə olmadı gözüm yurdumun.

Dərd üstə qoyulmuş qaraca taxtdı,
Bu da bir taledi, bu da bir baxtdı.
Bölünüb yüz yerə gör bir nə vaxtdı,
Yanında qaradı üzüm yurdumun.

Yolunda kəsilən, eh... baş olaydım,
Dərdinə, sərinə sirdaş olaydım.
Düşmənə atılan bir daş olaydım,
Qurbanı olaydım özüm yurdumun.

## Dərd

Deyirlər hər dərdə məlhəm zamandı,
Bəs zaman dərdləri niyə azaltmır?
Niyə dərd üstünə dərdlər qalanır,
Zamanın gücümü dərdlərə çatmır?

Dərdin ölçüsü var, dərdin çəkisi
Ayı var, ili var, çarəsizi var.
Allah dərdi verib dərd çəkənlərə,
Qayada, daşda da dərdin izi var.

Dərdlər çeşid-çeşid, dərdlər növbə-növ,
Göyün yer dərdi var, yerin göy dərdi.
Bu cadar səhralar yağışa həsrət,
Bu cadar dodaqlar çəkir ney dərdi.
Gör neçə illərdi gör-gör göynəyir -
Qaçqının yurd dərdi, vətən dərdi var.
Yüz il əkilməyən torpağımızın
Köksündə sızlayan kotan dərdi var.

Yuxusu nə vaxtdı ərşə çəkilib,
Pullunun bir yatır, dövlət dərdi var.
Qarabağ qalıbdı boynu bükülü
Yatmış vicdanların qeyrət dərdi var.

Deyirlər hər dərdə məlhəm zamandı,
Bəs zaman dərdləri niyə azaltmır?
Niyə dərd üstünə dərdlər qalanır,
Zamanın gücümü dərdlərə çatmır?

## Ehtiyacım var

Sevgisiz gözümə baxma, sevgilim,
Görən gözlərimin özüsən axı.
Sevgisiz bir kəlmə kəsmə, sevgilim,
Dilimin ən şirin sözüsən axı.

Səninlə açılır sabahım,- dedim,
Sənsiz gündüzüm də axşam kimidi.
Səni haraylayan, səni oxşayan
Ümidim sinəmdə ağ şam kimidi.

Arzumu gözümdə qoyma, sən Allah.
Yad izi düşməyən qarlı dağımsan.
Ən ağır günümdə, ən dar günümdə
Qəmlərə şərikim, dərd ortağımsan.

Səninlə şahıyam bu Yer üzünün,
Başımda eşq adlı qızıl tacım var.
Ömrümün sonuna yetincə bil ki,
Sevginə həmişə ehtiyacım var.

ədalət.-2018.-10 mart.-S.11.